# Beynəlxalq səyyahların unutmayacaqları Azərbaycan həqiqətləri



Otuz ilə yaxın Ermənistanın işğalında qalan və 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun zəfəri ilə azadlığına qovuşan Qarabağda və Şərqi Zəngəzurdakı dağıntılara, həmin ərazilərdə həyata keçirilən quruculuq-bərpa, minatəmizləmə işlərinə beynəlxalq səyyahlar böyük maraq göstərirlər.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və Türkiyə Gəzginlər Klubunun geniş tərkibdə heyətlərinin Qarabağ və Şərqi Zəngəzura ilk səfərləri 2021-ci ildə reallaşıb. Həmin il beynəlxalq səyahətçilərin bir, 2022-ci ildə isə dörd səfərləri olub.

Bu günlərdə beynəlxalq səyyahlar qrupu növbəti dəfə ölkəmizə gəliblər. Qrupa hərb tarixi ilə yaxından maraqlanan səyyahlar, həmçinin səyahətlər üzrə kitabları ilə tanınan müəlliflər daxildir. 12 ölkənin - ABŞ, Böyük Britaniya, İrlandiya, Belçika, Almaniya, Fransa, Danimarka, Niderland, İtaliya, İspaniya, Braziliya və Rusiyanın tanınmış səyyahlarının daxil olduğu 30 nəfərlik heyət Qarabağın və Şərqi Zəngəzurun bir sıra yerlərində olublar. Onlar üçgünlük səfər çərçivəsində Füzuli-Xocavənd-Şuşa-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl-Ağdam marşrutu üzrə hərəkət ediblər.

Əvvəlki illərdə olduğu kimi, bu səfərlərində də beynəlxalq səyyahlar Ermənistan tərəfindən işğal olunduğu illərdə uçurulub dağıdılmış, talan edilmiş, 2020-ci ildə Vətən müharibəsində ağır döyüşlərin aparıldığı, Azərbaycan dövlətinin böyük zəfərindən sonra isə bərpa və quruculuq dövrü başlamış Qarabağ və Şərqi Zəngəzur ərazilərini dolaşaraq reallıqları öz gözləri ilə görüblər. Onlar eyni zamanda dünyanın biznes və turizm elitasının diqqət göstərdiyi Zəngəzur dəhlizi ilə bağlı həyata keçirilən işlərlə yaxından tanış olublar.

Beynəlxalq səyyahların Qarabağa səfəri Füzulidən başlayıb. Yolboyu erməni vandallarının işğal müddətdində xarabalığa çevirdikləri Azərbaycan ərazilərini, talan etdikləri, dağıtdıqları maddi-mədəni irsimizi, qəhrəman ordumuzun yardığı istehkamları, sədləri lentə alıb, bəziləri ilə yerində tanış olublar. Prezidentin Qarabağ üzrə Xüsusi Nümayəndəliyinin əməkdaşları dağıntılar barədə geniş məlumat veriblər.

Fevralın 4-də səyyahlar Füzuli rayonunun İşıqlı kəndində minatəmizləmə, eləcə də ərazidən tapılan minaların zərərsizləşdirilməsi prosesini izləyə biliblər. Onlar Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, minaların və başqa sursatların təmizlənməsi işləri barədə məlumatlandırılıblar. ANAMA-nın nümayəndələri son 10 gün ərzində Aşağı Seyidəhmədli kəndində kütləvi məzarlığın olduğu güman edilən ərazidə tank əleyhinə 31 ədəd mina aşkarlandığı, burada işarələnmiş 4 hektarlıq ərazinin hələlik 0,17 hektar hissəsində minatəmizləmə fəaliyyəti icra olunduğunu bildiriblər. İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aşkar edilən 81 mindən çox mina və partlamamış hərbi sursatdan 14 minə yaxını tank əleyhinə minalardır. Minatəmizləmə fəaliyyəti Füzulinin Aşağı Seyidəhmədli kəndində davam etdirilir. Beynəlxalq səyyahlar həm də kütləvi məzarlığın axtarışı aparılan kənddə olublar.

Füzuli Beynəlxalq Hava Limanı ilə tanışlıqdan sonra xarici səyyahlar Qarabağın tarixinin qədimliyini təsdiq edən, ibtidai insan məskənlərindən olan Xocavənd rayonundakı Azıx mağarasına gediblər. Yalnız Azərbaycanın deyil, dünyanın nadir abidələrindən sayılan Azıx mağarasının da işğal müddətində ermənilər tərəfindən talandığı, burada qanunsuz tədqiqat və qazıntı işlərinin aparıldığı faktları ilə xarici səyyahlar əyani şəkildə tanış olublar.

Həmin gün səyyahlar Füzuli və Xocavənd rayonlarından sonra Şuşa şəhərinə doğru istiqamətləniblər. Şuşaya səfərlərinə Laçın-Xankəndi yolunda aksiya keçirilən ərazidən başlayıblar. Səyyahlar iki aya yaxındır fasiləsiz davam edən aksiyanın iştirakçıları ilə söhbət edib, onların məqsədlərini və tələblərini öyrəniblər. Bu aksiyanın Azərbaycanın suveren ərazisində mədəni sərvətlərin qanunsuz istismarına, talanmasına və daşınmasına qarşı təşkil edildiyi barədə məlumat alan beynəlxalq səyyahlar Laçın-Xankəndi yolunun humanitar məqsədlər üçün açıq olduğunu, aksiya iştirakçılarının dinc şəkildə şüarlar səsləndirdiklərini görüblər.

Sonra səyyahlar Cıdır düzünə gediblər. Oradan əsrarəngiz mənzərəyə tamaşa ediblər. Qonaqlar Şuşanın tarixi məkanları ilə tanış olublar. Onları Şuşa şəhəri, onun tarixi, işğal dövründəki vəziyyəti və işğaldan sonra həyata keçirilən yenidənqurma işləri barədə məlumatlandırıblar. Səyyahlara Azərbaycanın tanınmış sənətkarları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin həyatı, fəaliyyəti və güllələnmiş heykəlləri barədə danışılıb. Onlar Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar.

Səyyahlar fevralın 5-də Kəlbəcərə yollanıblar. Rayonun Zülfüqarlı kəndində yerləşən İstisuda olublar. Onlara ermənilərin işğal etdikləri digər ərazilərimiz kimi, Kəlbəcərdə də törətdikləri vəhşiliklər barədə məlumat verilib.

Səyyahlar Laçın rayonuna da baş çəkiblər. Onlara məlumat verilib ki, otuz ilə yaxın müddətdə işğal altında olmuş digər şəhər və rayonlarımız kimi, Laçın da erməni vandalizminə məruz qalıb, evləri, tarixi tikililəri, abidələri məhv edilib. İşğaldan qurtuluşu ilə bu rayonun da yeni dövrü başlayıb. Azərbaycan dövləti tərəfindən Laçında başlanılan genişmiqyaslı tikinti işləri sürətlə davam etdirilir.

Fevralın 6-da beynəlxalq səyyahlar qrupu unikal tarixi abidə olan Xudafərin körpüsünə gedib. Onlara Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi cinayətlər, Vətən müharibəsində işğaldan azad edilmiş Cəbrayıl rayonu, eləcə də Xudafərin körpüsü barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edildikdən sonra Şərqi Zəngəzurda həyat canlanmağa başlayıb və ölkəmiz tərəfindən mühüm layihələr reallaşdırılır.

Beynəlxalq səyyahlar Cəbrayıl rayonundan sonra Ağdamda olublar. Qonaqlar Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vandalizmi öz gözləri ilə görüblər. Onlar bu şəhərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilməyə başlanılan tikinti-quruculuq işləri ilə tanış olublar.

İşğaldan azad edilmiş ərazilərimizdə altıncı dəfə səfərdə olan beynəlxalq səyyahlar bu dəfə də həm lentə aldıqları kadrlarda, həm də yaddaşlarında Ermənistanın Azərbaycanın tarixi ərazilərində törətdiyi vandalizm və Vətən müharibəsindən sonra Azərbaycanın bu yerlərdə başlatdığı genişmiqyaslı, sürətli quruculuq, abadlıq işləri barədə zəngin və unudulmaz məlumatlar qalıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-7 fevral.- S.9.